Aqrar Xidmətlər Agentliyi

# Asiya çəyirtkəsi
## (Locusta migratoria migratoria L.)




088-588
axa.gov.az

## Zərərverici haqqında

Köçəri çəyirtkə asiya çəyirtkəsi (Locusta migratoria) Yer üzündə çəyirtkəkimilərin ən geniş növünə sahibdir. Geniş yayılmasına baxmayaraq, Asiya çəyirtkəsinin bütün məskunlaşma yerləri bir-birinə çox oxşayır. Bunlar əsasən çayların aşağı axınında və ya göllərin ətrafında yerləşən qamış cilliklərididir və kompleks kanal sistemi, böyük və kiçik su hövzələri, adacıqlar və kanallardan ibarətdir.

Asiya çəyirtkəsi yumurta fazasında qışlayır. Dişi fərd 300-ə qədər yumurta qoya bilir. Yumurtalar hər birində 50-115 ədəd olmaqla, torpağın üst qatına (2-7 sm dərinlikdə) qoyur.

## Mübarizə tədbirləri

**Mexaniki və aqrotexniki üsul**- Xüsusən payız aylarında torpağın üzdən yumşaldılması, malalanması və kultivasiyanın aparılması çəyirtkələr əleyhinə səmərəli tədbirlərdir. Erkən yazda əkinlər arasındakı boş yerlərin, yol kənarlarının və suvarma kanallarının yamaclarının disklənməsi faydalıdır. Bu əməliyyatlar qoyulmuş yumurtaların əzilərək və ya torpaq səthinə çıxaraq müxtəlif səbəblərdən məhv olmasına və zərərvericinin miqdarca azalmasına səbəb olur.

Kimyəvi üsul -Kimyəvi mübarizədə kiçik yaşlı sürfələr əleyhinə çiləmə ən geniş istifadə edilən səmərəli üsuldur. Məsarif normasından asılı olaraq, tamlitrajlı (200 l/ha) və ültra kiçik həcmli (1 l/ha) çiləmə tətbiq edilir. Çilələmələrin axşam (saat 18-dən 20-dək) və səhər saatlarında (saat 5-dən 10-dək) aparılması tövsiyə edilir.

İstifadə olunan pereparatlar Cypermethrin 0,4 l/ha, delthamethrin 0,4 l/ha, Alfa-cypermethrin 1 l/ha



**Zərərverici**